Azadlıq Radiosu

View the original article

DÜNYA XƏBƏRLƏRİ

# Paşinyan da Nyu-Yorka gedib

Sentyabr 22, 2026




Nikol Paşinyan

Ermənistanın baş nazir **Nikol Paşinyan** sentyabrın 22-dən 25-dək ABŞ-də işgüzar səfərə yola düşüb. O, Nyu-Yorkda BMT Baş Assambleyasının 81-ci sessiyasında çıxış edəcək.

Hökumətin məlumatına görə, Paşinyan BMT-nin baş katibi **Antonio Quterreş**, digər xarici həmkarları ilə görüşəcək. Digər görüşlərin konkret kimlərlə planlaşdırıldığı hələlik açıqlanmayıb.

Xarici işlər naziri **Ararat Mirzoyan** bir müddət əvvəl AzadlıqRadiosunun erməni xidmətinə BMT Baş Assambleyasının iclası çərçivəsində azərbaycanlı həmkarı xarici işlər naziri **Ceyhun Bayramov**la görüşəcəyini, ancaq hələlik yekun razılaşma əldə

olunmadığını bildirib. Mirzoyanın sözlərinə görə, görüş tərəflərin cədvəllərindən asılıdır.

Mirzoyan və Bayramov sonuncu dəfə sentyabrın əvvəlində Bişkekdə, Şanxay Əməkdaşlıq Təşkilatının (ŞƏT) sammiti çərçivəsində görüşüblər.

Ötən əsrin 80-ci illərində gərginləşən Qarabağ münaqişəsi Azərbaycan və Ermənistan arasında toqquşmalara səbəb olmuşdu. 1990-cı illərin əvvəllərində Azərbaycanın Qarabağ bölgəsi, ətraf yeddi rayonu işğal edilib. 2020-ci ildə 44 günlük müharibə və 2023-cü ildə birgünlük hərbi əməliyyatlar nəticəsində Bakı bütün ərazilərində suverenliyini bərpa edib.

Ötən il avqustun 8-də Azərbaycan və Ermənistanın rəsmiləri Vaşinqtonda sülh müqaviləsinin mətnini paraflayıblar. Oval ofisdə ABŞ prezidentinin iştirakı ilə tərəflər görüşün nəticələri haqda bəyannamə də imzalayıblar. Bəyannaməyə əsasən, Ermənistanın cənubundan keçməklə Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında maneəsiz əlaqə yaranacaq. TRIPP adlanan bu marşrut Ermənistanın suverenliyini, ərazi bütövlüyünü və yurisdiksiyasını qoruyub saxlayacaq.

Paraflanan mətndə tərəflər bir-birlərinin ərazi bütövlüyünü tanıyır, habelə qarşılıqlı iddiaların geri çəkiləcəyi vurğulanır.

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur